# KİTABIN ARASINDAKI MƏKTUB

**povest**

*(Əvvəli ötən saylarımızda)*

...Elə indicə öz gözümlə gördüyüm dəhşətli, iyrənç mənzərənin təsirindən tamamilə başqa adama çevrildim. Ağlımın ucundan belə keçməyən, təsəvvür belə etmədiyim bir vəziyyətlə qarşılaşacağımı heç vaxt düşünməmişdim. İnsan bütün günahları bağışlaya bilər. Xəyanəti necə?... Hələ bu xəyanəti ar-namusu tapdayan sənin inandığın adamlar edirsə?... Onda necə?...

Bu həyatda pis-yaxşı sevdiyim iki insan var idi. Biri - mənimlə bir bətndən həyata gələn bacım, ikincisi- ümidlə bir yastığa baş qoyduğum həyat yoldaşım.

Onlar məni sevirdilərmi, sevmirdilərmi, bu barədə indiyə kimi dərindən fikirləşməmişdim. Ancaq mən bütün mehrimi, həyatımı bu iki nəfərə həsr etmişdim.

Bacım, bir mələk kimi saf, bir nur kimi zərərsiz görünən bacım... hər dəfə onu görəndə elə bilirdim rəhmətlik anamı görürəm. Ərimin məhəbbətlə baxan gözlərini görəndə, dünyanın qəmini, kədərini unudardım. Ancaq indi onlara hansı dillə, "bacım, ərim" deyə bilərəm?

Həyatda, ərimin başqa qadınlara meyli olması barədə şayiələr mənə də gəlib çatırdı. Əslində, mən özüm qadın idim, mən nə qürurumun, nə ar-namusumun, nə də qədir-qiymətimin başqalarının ayaqları altına atılmasını istəməzdim. Ancaq...nə edim, yeddi ildir ki, həyat yoldaşıma uşaq doğa bilmədiyimə görə, onun yanında özümü günahkar sayırdım. Onun bütün hərəkətlərində bunu hiss etsəm də, özümü bilməzliyə qoyurdum.

Bacım? Can-ciyərim, mənim qanım, canım?! Ərim bir qanadım olsa, bacım ikinci qanadım idi. Bacımın öz həyatını qura bilməməsi başqa bacılar kimi məni də çox düşündürürdü. Onun tezliklə ailə qurmasını, bu ötəri dünyada bütün insanlarla birlikdə xoşbəxt yaşamasını istərdim.

Onun xəsiyyətində mənim xoşuma gəlməyən bir dəyişiklik hiss etməmişdim. Hiss etsəm də, bunu elə də nəzərə almırdım. Mənə münasibətini həmişə ən yaxın rəfiqələr arasında olan münasibət hesab etmişəm.

Ancaq bu iki əzizimi nə vaxtsa bir yataqda, biədəb vəziyyətdə görəcəyim ağlıma belə gəlməzdi.

Yarəb, bu yuxumu idi? Yox, min əfsuslar olsun, mənim bu iyrənc vəziyyəti öz gözlərimlə görməyim həqiqətdir.

...Ərimin səfərdən hacan qayıtdığını heç bilməmişəm. Mən hələ özümə gəlməmiş, elə bil kimsə mənim üstümə soyuq su tökdü, səksənib oyandım. Halsız vəziyyətdə yatağımda oturdum. Qapı açarla acıdı və girəcəkdə bacımla ərimin səsini eşidib, yataqdan atılaraq durdum. Nəhayət, intizarla gözlədiyim ərim səfərdən qayıtmışdı. Ancaq bu vaxt hansısa bir güc məni yerimdə tutub saxladı. Bir az gözləyib, Allahin iki bəndəsinin biri-birinə olan münasibətini izləmək qərarına gəldim. Aradan beş-on dəqiqə keçdi. Qapıya qulağımı tutdum, tam sakitlik. Sonra barmaqlarımın ucunda dəhlizə çıxdım. Bacımın yataq otağının qapısı azca aralı idi. Pərdəni aralayıb, içəriyə baxdım. Sonra isə... Heykəl kimi bir neçə saniyə quruyub qaldım. Hə, qəbahət iş görən iki nəfərin biri mənim ərim, ikincisi isə bacım idi. Buna heç bir şübhə yox idi. Əvvəlcə qışqırıb ağlamaq istədim, ancaq səsim çıxmadı. Sonra ayaqlarım məni özümdən asılı olmayaraq, yataq otağıma gətirdi.

Heç nə düşünə bilmirəm... beynim də, ürəyim də sahibi köçüb gedən ev kimi boşalıb. Canımdan artıq sevdiyim - iki əzizim, mənə xəyanət edib. İndi bu dünyada mənim kimim, nəyim var?! Cavabım yox, buna ağlım çatmır. Başımdan şiddətli ağrı qalxıb. Nə etməli olduğum barədə qəti qərara gəldim. Bax, əcəlin əlindən tutub gedəcəm. Əvvəla, kitabın icində yazdığım sirli məktuba son nöqtə qoyum. Sonra isə, kimsəsiz yetim qalan acınacaqlı həyatıma son verim... Əlvida, mənim bivəfa, binamus, xain, yaramaz... əzizlərim!"

Ehtimal ki, müstəntiq məktubu əvvəldən axıra kimi oxumuşdu, Otaqda milçək uçsaydı eşidilərdi. Nurəliyev əlindəki bir



**Rüstəm CABBAROV**

vərəq kağızı və qarşısındakı kişini diqqətlə izlədi. Qasımcanın rəngi indi onun əlindəki ağ kağız kimi ağarmışdı. Görünür, o indi eşitdiyi reallığın bütün mahiyyətini anlamışdı. Ancaq bu narahatlıq uzun çəkmədi. Bir anda Qasımcan fikirlərini cəmləyə bildi.

-Yalandı,- yerindən atılaraq qalxdı, anormal səslə qışqırdı.- Bunun hamısı yalandı, böhtandı. Uydurmadı! Heç vaxt belə şey ola bilməz.

İndiyə kimi qəssab qarşısında sakit duran qoyun kimi gözlərini döyən kişinin birdən-birə şir kimi nərə çəkməsi müstəntiqi çaşdırdı.

- Kim uydurub? - müstəntiq səsinin tonunu alaraq soruşdu.- Bu kitaba mərhum Şoalimovadan sonra və məndən qabaq heç kimin əli dəyməyib. Deməək istəyirsiz ki, bu məktubu mən özüm yazmışam!

Müstəntiqin təmkinli, bir az hədələyici səsi gözü qanla dolan Qasımcanı az da olsa, sakitləşdirdi. Müstəntiq isə, sakit halda öz hücumunu davam etdirdi.

-Kitabı evinizdən alıb getməmişdən əvvəl hərflərin altından xətt çəkildiyini sizə göstərməyim yadınızdadırmı?

- Əslində... əslində, bu yalandı, heç bir halda belə olmayıb, olmayıb... - deyərək üzünü əli ilə örtərək ağlamaq istədi, sonra nəyisə yadına salıb, birdən canlandı. - Ekspert rəyləri əlinizdədir. Özüm də oxumuşam. Mənzurə gecə saat on iki -bir arasında ölüb. Mən isə səhər saat altıya beş dəqiqə qalanda evə gəlmişəm.

- Yalandı! - son dərəcə inandırıcı və qətiyyətlə dedi müstəntiq. - Bizi o dərəcədə qanmaz, hesab etməyinizi istəməzdim. Biz təyyarə limanı ilə əlaqə saxladıq. Lazım olan məlumatı faksla göndərdilər. 324-cü reyslə İstanbuldan Daşkəndə ucan təyyarə səhər yox, axşam saat doqquzun yarısı gəlib. - O bunu deyib, bir parca parıltılı faks kağızını Qasımcana uzatdı. - Demək olar ki, gömrükdən keçmə və digər rəsmiləşmə prosedurları ən uzağı bir saat çəkər. Hava limanı ilə eviniz arasındakı məsafə yarım saatlıq yoldu. Siz on birin yarısında evdə olubsuz. Bundan sonra isə məktubda necə yazılıbsa elə də baş verib. İnsan ölümündən qabaq heç vaxt yalan danışmaz.

- Yox, bunun hamısı yalan, böhtandı! - Qasımcan yumruğunu stola vurdu. - İnanmırsınızsa, Məhzunəni çağırıb soruşa bilərsiz, mən səhər evə gələndə hələ altı yox idi. Bunu Məhzunənin özü də təsdiqləyər.

- Hə, dostum,- müstəntiq sakitcə başını tərpətdi. -Arvadının kiçik bacısının təsdiqləməsinə gəldikdə, o lazım olan şeyi təsdiqlədi.

-Nəyi? - Qasımcanın gözlərindəki hirs və narazılıq birdən çaşqınlıq və dəhşətli vəziyyətə çevrildi. - İndicə... Məhzunə ilə yenə danışdınız?

- Hə, - qalib kimi gülümsədi müstəntiq. - Siz gəlməmişdən iki saat qabaq onu da çağırmışdım. Nəhayət, hamısı aydınlaşdı. Ancaq qabaqcadan xəbərdarlıq edirəm, əgər indən sonra arvadınızın kiçik bacısının bir dənə tükü düşsə, günahınız daha da ağırlaşacaq. İndi Şoalimova bizim himayəmiz altında olacaq.

*Özbək dilindən tərcümə edəni:*
*Ədalət Məmmədov*